# Ulu Öndərin xalqa müraciəti gələcək minilliklərdə də öz aktuallığını saxlayacaq

***Ümummilli lider Heydər Əliyev yeni il, yeni əsr və üçüncü minillik münasibətilə 29 dekabr 2000-ci il tarixdə Azərbaycan xalqına müraciət etmişdir***

Əsrlərin ayrıcında, minilliyin böyük zaman kəsiyində müstəqil dövlətçilik tarixinin mürəkkəb, qalmaqallı, ziddiyyətli dövrlərində, yeni müstəqil Azərbaycanın mövcud durumunda, əsrin üçdə birini xalqının və Vətəninin tərəqqisinə həsr edən böyük şəxsiyyət Heydər Əliyevin parlaq siması çox aydın görünürdü.

Heydər Əliyevin fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və o, hər iki mərhələnin imkanlarından bacarıqla istifadə edib respublikamızın hərtərəfli inkişafını təmin etmişdi.

XX əsrin 70-ci illərində Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev, ilk növbədə respublikamızın ən geridə qalmış sahələrinə qayğı göstərməyə başladı. Kənd təsərrüfatı, ağır və yüngül sənaye, neft sahəsində yüksək məhsuldarlıq əldə etmək üçün yeni texnologiyaya diqqət artırıldı, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində böyük irəliləyiş oldu.

Əvvəlki dövrlərdə olduğu kimi, əsrin sonlarında da Azərbaycan xalqının inkişaf yolu hamar olmamışdı. İnkişaf, tərəqqi, sabitlik həmişə sıldırımlı qayalardan, çətin yollardan keçmişdir. Müstəqilliyimizin möhkəmlənməsi yolunda 1993-cü ilin iyunundan sonra Azərbaycanda başlamış uğurlu işlər xarici aləmdə bizə qarşı inam və etimad yaratdığı halda, respublikamızın daxilindəki bəzi qüvvələrdə qeyri-adi qısqanclıq hissləri doğurmuşdu.

Ümummilli lider Heydər Əliyev "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" xalqa müraciətində demişdir: "Biz fəxr edirik ki, itirilmiş dövlətçilik ənənələrini XX əsrin sonlarında bərpa etmək fürsəti bizim nəslə nəsib olmuşdur. Azərbaycan Respublikasında dövlətçilik ənənələrinin zənginləşdirilməsi, onun əbədi edilməsi hər birimizdən var qüvvəsini sərf etməyi tələb edir. İnanıram ki, tarixin bir çox sınaqlarından ləyaqətlə çıxmış xalqın bu ali məqsəd uğrunda bütün imkanlarından lazımınca istifadə edəcək, müstəqil Azərbaycan dövlətinin bu günü və sabahının tam təminatçısı olacaqdır. İftixarla demək olar ki, Azərbaycanın XX əsrdə yaratdığı qüdrətli iqtisadi potensial, böyük mütəxəssislər ordusu xalqımızın ən ümdə amallarının həyata keçirilməsi üçün möhkəm baza, əlverişli zəmin rolunu oynayır".

Ulu Öndər atdığı hər addımla, qəbul etdiyi hər bir qərarla əslində bundan sonra yaşayacağımız yüzilliklər üçün də düzgün inkişaf yolu müəyyən edib. Müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə tarixi baxımdan çox qısa bir zaman kəsiyində mənsub olduğu xalqa ən müasir dünyəvi, hüquqi və demokratik dövlət qurub əmanət edən Heydər Əliyev ömrünün son günlərində Vətən övladlarına tarixi bir nəsihətnamə yadigar qoymağı da unutmadı. Bu baxımdan Heydər Əliyevin 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti yaşadığımız eranın XX və XXI yüzilliklərinin, ikinci və üçüncü minilliklərin qovuşuğunda xalqımızın mənəvi sərvətlər xəzinəsinə daxil olmuş nadir incidir.

"Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adı ilə dünyanın müxtəlif ölkələrinə səpələnən azərbaycanlılara ünvanlanmış bu müraciət həm də heç şübhəsiz, gələcək qərinələrdə, minilliklərdə də öz qiymətini, aktuallığını saxlaya biləcək misilsiz elmi-nəzəri ümumiləşdirmədir.

**(davamı 3-cü səhifədə)**



# Ulu Öndərin xalqa müraciəti gələcək minilliklərdə də öz aktuallığını saxlayacaq

## *Ümummilli lider Heydər Əliyev yeni il, yeni əsr və üçüncü minillik münasibətilə 29 dekabr 2000-ci il tarixdə Azərbaycan xalqına müraciət etmişdir*

(əvvəli 1-ci səhifədə)

2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə xalqa müraciətində ümummilli lider həyatın demək olar ki, bütün sahələrini əhatə edib. Tarixçilər haqlı olaraq bu müraciəti Azərbaycan xalqının tam dolğunluğu ilə yazılmış yüzillik salnaməsi adlandırırlar.

Ulu Öndər nəsillərə müraciətində müstəqilliyin ilk illərində neft strategiyasının işlənib hazırlanmasını və həyata keçirilməyə başlanmasını xalqımızın böyük uğuru hesab edərək neftimizin misilsiz sərvət kimi məhz Azərbaycan xalqına məxsus olduğunu və onun gələcəkdə xalqın rifah halının yüksəldilməsi kimi ali məqsədə xidmət edəcəyini bir daha bəyan etmişdi.

Ümummilli Lider daim həm milli dəyərlərin qorunması zərurətini vurğulayır, həm də başqa mədəniyyətlərə açıq olmağı tövsiyə edirdi. Azərbaycançılıq konsepsiyasının məzmununda ulu öndər həmin özəlliyə xüsusi yer vermişdi. O, yeni əsr və üçüncü minilliyin gəlişi ilə bağlı Azərbaycan xalqına müraciətində hər bir azərbaycanlının öz milli adət-ənənələrinə sadiq olması ilə yanaşı, dünya mədəniyyəti incilərinə yiyələnməyin vacibliyini də vurğulamışdı.

Heydər Əliyev fərqli mədəniyyətlərin yanaşı yaşaması, sivilizasiyalar arasında dialoqun formalaşdırılması və hər bir fərdin milli ilə beynəlmiləlliyi özündə ehtiva etməsi zərurətini həmişə önə çəkirdi. Onun aşağıdakı fikirləri indi də öz aktuallığını saxlamaqdadır: "Biz Azərbaycanda demokratik respublika quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik! Çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq".

Müraciət bütün başqa sahələr kimi, tarix elmimizin inkişafına da təkan verəcək konseptual əsərdir. Belə ki, bu qiymətli elmi-nəzəri ümumiləşdirmədə əvvəldən axıradək, bütünlüklə Azərbaycanın keçdiyi tarixi yola nəzər salınır, tariximizin ayrı-ayrı dövrləri, mərhələləri prinsipial şəkildə qiymətləndirilir, bir çox hadisələrə, proseslərə yeni qiymət verilir.

Müstəqillik tariximizin - 1993-cü ilin iyunundan sonrakı dövrünün ən mühüm nailiyyətlərindən biri də tariximizin Heydər Əliyev konsepsiyasının formalaşmasının başa çatmasıdır. Əsrin, minilliklərin qovşağında dünya azərbaycanlılarına müraciətdə Böyük Azərbaycanlı həmvətənlərimizə, bütün soydaşlarımıza bu sahədə əldə olunanları, tarix elmimizin və tarixi tədqiqatların əsas məram və prinsiplərini belə bəyan edir: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir".

Ulu Öndərin müraciəti xalqımızı, dünyanın müxtəlif guşələrinə səpələnmiş bütün azərbaycanlıları, hər bir soydaşımızı, ilk öncə Azərbaycan gəncliyini yeni - böyük Azərbaycan intibahına səsləyən müqəddəs çağırışdır.

Müasir dünyamızın böyük dövlət xadimi İlham Əliyevin dahiyanə uzaqgörənliklə yeritdiyi müdrik daxili və xarici siyasət sayəsində banisi ulu öndər Heydər Əliyev olan müstəqil Azərbaycan artıq dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin başladığı inkişaf strategiyası böyük uğurla, yaradıcılıqla davam etdirilir və Azərbaycan Şərqlə Qərbin qovuşuğunda dünyanın tərəqqi etmiş ölkələrindən biridir.

Ümummilli lider Heydər Əliyev Dağlıq Qarabağ problemi ilə bağlı danışarkən deyirdi: "1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən, elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə qarşı, vətəndaşların Konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhədlərimizin toxunulmazlığı müxtəlif səviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət mərhələ-mərhələ həyata keçirilirdi".

Bu problemin yaranmasının səbəblərini, onun təşkilatçılarını, günahkarlarını açıqlayaraq çıxışını nikbin ruhda bitirmişdi: "Dünyada heç bir çətinlik əbədi deyildir. Tarix boyu bütün mübarizələrin sonunda ədalət zəfər çalmışdır. Ona görə də mən üzümüzə gələn 2001-ci ili ümid, inam ili adlandırardım. Çünki inanıram ki, xalqımız həmişə olduğu kimi, 2001-ci ildə də üzərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gələcəkdir. Müstəqilliyimiz möhkəmlənəcək, torpaqlarımız azad olunacaq, Azərbaycan Respublikası sülh və firavanlığa qovuşacaqdır".

2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam edən Vətən müharibəsində ulu öndərin bu arzusu, bu diləyi gerçəkləşdi, Azərbaycan torpaqlarını azad etdi. Ulu Öndərin təbirincə desək, ədalət zəfər çaldı.

**Zaman öz ahəngi ilə axıb keçəcək, minilliklər boyunca millətimiz və dövlətimiz dövranın sərt və gözlənilməz sınaqları ilə üz-üzə qalanda düşdüyümüz vəziyyətdən ən optimal çıxış yolunu yenə Heydər Əliyev irsində axtarıb tapacaq.**

**"Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin Azərbaycan xalqının milli azadlığının keşiyində daim duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır. İnanıram ki, müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".**

*Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə 29 dekabr 2000-ci il tarixdə Azərbaycan xalqına müraciətindən.*

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**